# **İstiqlal və istiqbal yolçusu**

## Məhəmməd Əmin Rəsulzadə - 140



*Tarixin yeni bir gözəl çağında*

*Qaranlıq qış keçib bahar gələcək.*

*Hər hansı bir ilin aydın günündə*

*Azərbaycan istiqalala ərəcək*

*(M.Ə.Rəsulzadə. Mayıs duyğuları)*

*(Daycest)*

**Bakı - 2024**

Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən və Azərbaycan siyasi mühacirətinin liderlərindən biri olan M.Ə.Rəsulzadə Azərbaycan tarixinin ən görkəmli və böyük şəxsiyyətlərindən olub, Azərbaycan milli istiqlal hərəkatına başçılıq etmişdir. XX əsrdə Azərbaycanda müstəqillik hərəkatının şüarına çevrilmiş məşhur "Bir kərə yüksələn bayraq, bir daha enməz!" sözləri böyük Məhəmməd Əminə aiddir.
Məhəmməd Əmin Rəsulzadə 1884-cü il yanvarın 31-də Bakının Novxanı kəndində anadan olmuşdur. Din xadimi olan atası oğlunu pedaqoq Sultan Məcid Qənizadənin müdir olduğu ikinci "Rus-müsəlman" məktəbinə qoymuş, buranı bitirdikdən sonra Məhəmməd Əmin Rəsulzadə öz təhsilini Bakı Texniki məktəbində, rus dilində davam etdirmişdir, lakin təhsilini yarımçıq qoyaraq siyasi fəaliyyətə başlamışdır. Azərbaycan milli istiqlal hərəkatının və təkcə türk ellərində deyil, bütün islam aləmində ilk respublika üsul-idarəsi olan Azərbaycan Demokratik Respublikasının təməl daşını qoyan Məhəmməd Əmin Rəsulzadənin inqilabi fəaliyyətinin ilk illəri də məhz bu dövrə təsadüf edir. 1902-ci ildə 17 yaşında olan M.Ə.Rəsulzadə "Müsəlman gənclik təşkilatı"nı yaradıb. Təşkilat mətbəə üsulu ilə intibahnamələr çap edib əhali arasında yaymışdır. 1904-cü ildə o, Rusiya Sosial Demokrat Fəhlə Partiyası Bakı Komitəsi nəzdində "Müsəlman sosial-demokrat "Hümmət" qrupunun yaradılmasında iştirak etmişdir. 1905-1907-ci illər rus inqilabının gedişində və bundan sonra Azərbaycanda yaranan milli oyanış, Əlimərdan bəy Topçubaşov, Əhməd Ağaoğlu, Əli bəy Hüseynzadə, Həsən bəy Zərdabi və başqalarının çar Rusiyasının milli ayrı-seçkilik siyasətinə qarşı mübarizəsi, getdikcə genişlənməkdə olan "türkləşmək, islamlaşmaq və müasirləşmək" məfkurəsi Rəsulzadənin milli-siyasi görüşlərinin formalaşmasına güclü təsir göstərmişdir. 1905-1907-ci illər inqilabının məğlub olmasından sonra Rusiyada təqiblərin artdığı şəraitdə Rəsulzadə İrana mühacirət etdi. Rəsulzadə 1908-1911-ci illər İran inqilabında, Cənubi Azərbaycanda milli-demokratik oyanışda fəal iştirak etmiş, Səttarxan və Bağırxanla görüşmüşdü. Həmin dövrdə o, Seyid Həsən Tağızadə ilə birlikdə İran Demokrat Partiyasını yaratmışdır. İran inqilabı yatırıldıqdan (1911) sonra Rəsulzadə S.H.Tağızadə ilə birlikdə Türkiyəyə mühacirət etmişdir. Burada çar Rusiyasının təqiblərindən qurtularaq Türkiyəyə sığınmış Əli bəy Hüseynzadə və Əhməd Ağaoğlu ilə sıx əməkdaşlıq etmişdir. Rəsulzadə 1913-cü ildə Bakıya dönür və milli azadlıq mübarizəsində daha fəal iştirak edir. 1915-ci ildə "Açıq söz " qəzetini nəşr edir. Azərbaycan dilinin saflığı uğrunda mübarizə aparır, "Dirilik" jurnalında "Milli dirilik" başlığı ilə silsilə məqalələr dərc etdirir.

Oktyabr çevrilişindən sonra keçmiş Rusiya imperiyasının sərhədlərini bərpa etmək siyasəti yeridildi və 1918-ci ilin martında Bakıda və bunun ardınca ölkənin digər bölgələrində Azərbaycan xalqına qarşı kütləvi soyqırımları törədildi. Bu zaman Rəsulzadə milli azadlıq hərəkatının digər görkəmli nümayəndələri ilə birlikdə Qafqazın Rusiyadan aynlaraq müstəqil konfederasiya dövləti yaratması və Türkiyə ilə sülh danışıqlarına girməsi uğrunda mübarizəyə başlayır və Tiflisdə - Zaqafqaziya fraksiyası rəyasət heyətinin sədri kimi çıxışlar edir. 1918-ci il 27 may tarixində M.Ə. Rəsulzadə Azərbaycan Milli Şurasının sədri seçilir. Milli Şura Azərbaycanı müstəqil dövlət elan edir. Rəsulzadə dövlət xadimi kimi Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci ilin iyununda baş vermiş ilk hökumət böhranın aradan qaldırılmasında mühüm rol oynamış, sədri olduğu Milli Şuranın müvəqqəti olaraq istefasına razılıq vermişdir. O, 1918-ci ilin iyununda Azərbaycan Xalq Cümhuriyyətinin İstanbul beynəlxalq konfransına göndərilən səlahiyyətli nümayəndə heyətinə sədrlik etmiş, beynəlxalq şəraitdə Azərbaycanın mənafeyini uğurla müdafiə etmişdir.

1920-ci il aprelin 27-də XI Qırmızı ordunun artıq Bakını ələ keçirmiş olduğu şəraitdə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentində hakimiyyəti bolşeviklərə təhvil vermək məsələsi müzakirə olunarkən qətiyyətlə bunun əleyhinə çıxmışdır. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra gizli fəaliyyətə keçən Rəsulzadənin göstərişi ilə Bakıda "Müsavat"ın gizli mərkəzi yaradıldı. M.Ə.Rəsulzadə 1920-ci il avqustun 17-də həbs olunmuş, lakin İ.Stalinin göstərişi ilə həbsdən azad olunub Moskvaya aparılmış, bir müddət sonra Sankt-Peterburqa, oradan isə gizli yolla Finlandiyaya keçərək Türkiyəyə mühacirət etdi. 1922-ci ilin sonlarında onun İstanbulda siyasi mühacir həyatı başlandı. O, Azərbaycan Milli Mərkəzini (İstanbulda), "Müsavat" Partiyasının Xarici Bürosunu yaratdı və "Müsavat"ın Azərbaycanda fəaliyyət göstərən gizli təşkilatına istiqamət verdi.

1931-ci ildə sovet hökumətinin tələbinə əsasən, Türkiyəni tərk etməyə məcbur olan Rəsulzadənin 1932-ci ildə siyasi mühacirətinin Polşa dövrü başlandı. 1939-cu ildə İkinci dünya müharibəsinin başlanması ilə Polşadan Fransaya, oradan İsveçrəyə, İsveçrədən İngiltərəyə, nəhayət Rumıniyaya keçdi. Müharibədən sonra, 1947-ci ildə Türkiyəyə qayıdan Rəsulzadə burada Azərbaycan Milli Mərkəzinin başçısı kimi fəaliyyətini davam etdirdi. Daha sonra ABŞ-a gedərək Azərbaycanın Xalq Cümhuriyyətinin yaradılmasının 35-ci ildönümü münasibətilə 1953-cü il mayın 28-də "Amerikanın səsi" radiosu ilə Azərbaycan xalqına müraciət etdi. Rəsulzadə Azərbaycanın mətbuatı tarixində siyasi publisistikanın ən görkəmli nümayəndələrindən biridir. Tədqiqatlar göstərir ki, onun 1903-20-ci illərdə təkcə Azərbaycanın dövri mətbuatında 1200-dən artıq müxtəlif janrda yazıları dərc olunmuşdur. O, ədəbi-publisistik fəaliyyətini siyasi mühacirət illərində də davam etdirmiş, Azərbaycan xalqının tarixi və ədəbiyyatı ilə bağlı çoxsaylı məqalələr dərc etdirmişdir. Rəsulzadə ömrünün sonunadək Azərbaycanın müstəqilliyinin bərpa olunması uğrunda istiqlal mübarizəsini davam etdirmişdir. 1955-ci il, martın 6-da Ankarada vəfat etmiş və həmin şəhərin Əsri qəbristanında dəfn olunmuşdur.

F.Köçərli adına Respublika Uşaq Kitabxanası "M.Ə.Rəsulzadənin 140 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı"na əsasən görülən tədbirlər çərçivəsində M.Ə.Rəsulzadə haqqında kitabxana fondunda ötən əsrin əvvəllərindən günümüzədək mövcud olan çap əsərlərinin tam mətnli biblioqrafik göstəricisini (daycest) hazırlayaraq oxucuların istifadəsinə təqdim edir.

## Məhəmməd Əmin Rəsulzadənin dəyərli fikirləri:

***

***Azadlıq***

***“Milli istiqlala malik olmayan bir millət, hürriyyət və mədəniyyətini də hifz edə bilməz. İnsanlara hürriyyət, millətlərə istiqlal.”***

***“Ancaq dövlətçilik uğrunda öz mübarizəsində birləşmiş xalqlar istiqlaliyyət qazanacaqlar. Çünki ancaq onlar birlik və dəyanətdən doğan ideallarına və özlərinə inama malik ola bilərlər.”***

***“Azadlıq, cahanşümul bir fikirdir. Bir tək əsir insan, bir tək əsir millət vaqii qaldıqca dünya həqiqi azadlıq və əmniyyət üzü görə bilməz!”***

***“Azadlıq əsasını, birləşmiş millətlər prinsipini və insan haqlarını tutan tərəf qalib gələcəkdir.”***

***“Azadlıq fikrinin məşəli qanla sönməz!”***

***“Demokrasi idarəsi hər cürə qorxudan və zorlamadan azad bir idarə sistemidir. Bütün dünya bu sistemə tabe olmadıqca, insanlıq rahatlıq üzü görməyəcək.”***

***

**Azərbaycan**

***“Bulunduğumuz mühacirət şərtləri daxilində, Azərbaycan davası naminə birləşmək milli davanı yaşatmış və yaşadan fikir sistem və nümayəndələrinə hörmət etməklə olur. Bunun üçün hər türlü kiçik hesablardan və hisslərdən sıyrılaraq fikrə önəm vermək lazımdır”.***

***“Ah, Azərbaycan! Biz sənin haqqını tələb etmək deyil, yalnız adını söyləmək üçün nə qədər məruzələrə rast gəldik, nə qədər töhmətlərə məruz qaldıq!***

***“Azərbaycan muxtariyyəti diyorduq: soldan və sağdan hər növ hücuma məruz qalırdıq.”***

***“Biz, Azərbaycan torpaqlarını qızdıran atəşi-müqəddəsi köksümüzdə bəsləmək istiyoruz: bizə Moskvada yanacaq “məşəli” nişan veriyorlardı.”***

***“Azərbaycan davası üç - beş kişinin (nəfərin) həyatilə ölçüləcək kiçik bir dava deyildir!”***

***“Azərbaycançılıq demək, istiqlalçılıq deməkdir.”***

***“Eşqi istiqlal ilə yanan və həsrəti hürriyyətlə saxlayan Azəri gəncliyinin ürəyi yarılsa, bu bayrağın (Azərbaycan bayrağının) orada hәkk edildiyi görünər.”***

***“Xalqımızın inkişafını təsdiqləyən cəhətlərdən biri odur ki, ilk türk dramaturqu azərbaycanlı, ilk türk bəstəkarı azərbaycanlı, məzhəb uzlaşmadığını ilk dəfə ortadan qaldıran yenə də azərbaycanlı, nəhayət, İslam aləmində ilk dəfə cümhuriyyət elan edən də azərbaycanlıdır.”***

*“Azərbaycan dövrü-istiqlalına bolşeviklər “Müsavat dövrü” deyirlər. Fəqət, xalq bu dövrə “Azərbaycan dövrü” deyir. Xalqın düşüncəsində Azərbaycan məfhumu coğrafi bir mənadan ziyadə fikir və əməl şəklində təcəssüm ediyor. İstiqlal xaricində onun üçün, bir Azərbaycan yoxdur.”*

***

## *Təhsil*

***“Biz elmə, mədəniyyətə öz dilimizin, öz mədəniyyətimizin ruhu, rəngi ilə pərvərdə edilmiş bir millət çıxarmaq istiyoruz: bizə Ərəbistanı göstəriyorlardı.”***

***“Universitetin təsis edilməsi dövlətin əsas vəzifələrindən biri olmalıdır, buna görə də bütün maneələr aradan qaldırılmalıdır. Əlbəttə, yaxşı olardı ki, açılacaq elm ocağı türk dilində olaydı, lakin bu hələlik mümkün deyildir. Lakin, bu, başqa dildə də olsa, Universitetin fəaliyyət göstərməsinə mane olmamalıdır. ...Universitetdə türk dili keçiləcək, tələbələrin özləri də Bakıda, öz doğma xalqı içərisində özlərini rahat hiss edəcəklər".***

***“Yaşasın maarif! Var olsun əhli-maarif!”***

***“Təhsilin demokratikləşdirilməsi ideyasının əsasını, xalqın ədəbiyyatını, tarixini, mədəniyyətini dərindən öyrəmək və bu biliklərin dünya mədəniyyətinə körpü salmaq təşkil edir.”***

***

## *Bayraq*

***“Milli bayrağın torpaqlara deyil, millətin vicdanına enmiş olduğunu, hər kəsin bu bayrağı ruhunda, qəlbində və bağrında mühafizə etməkdə olduğuna inanıram”***

***“Bir daha qaldırılmış bayraq bir daha enməyəcəkdir!”***

***"...Müstəqil Azarbaycanı təmsil edən o üç boyalı bayrağı Şurayi-Milli qaldırmış, türk hürriyyəti, islam mədəniyyəti və müasir Avropa iqtidarı-əhrarnəsini təmsil edən bu üç boyalı bayraq daima başlarımızın üstündə ehtiraz edəcəkdir. Bir dəfə qaldırılmış bayraq bir daha enməyəcəkdir"***

***“Milli Azərbaycan bayrağı – işdə bizim çöhrəmiz! Milli hakimiyyət uğrunda çarpışan, çalınmış istiqlalını geriyə almaq üçün çalışan bir millət çöhrəsi!”***

***

## *Dil*

***“Dil millətin böyük hissəsidir. Onun zahiri və batinidir. Millətləri biri-birindən ayıran ən böyük əlamət, iştə bu dil damğasıdır!”***

***“Həqiqətən dil milləti hər şeydən daha gözəl təmsil edir. Millət dil vasitəsi ilə bütün məziyyət və mövcudiyyətini ərz edə bilir. Adəm oğlunun sözü bəzi riyazi və fənni məfhumları andıran əlcəbr və ya kimya əlamətləri kimi ölü hərflər deyildir. Onun qanı, canı vardır. Millətlə bərabər doğar, onunla bərabər yaşar, tərəqqi edər.”***

***“Milliyyətin ümdə rüxnünü (əsas üzünü) təşkil edən şey dildir.”***

***“Bir milləti məhv edib aradan götürmək qəsdində olan siyasətlər də əsil bunun üçündürki, təməssül (həzm etmə, assimilyasiya) əməliyyatı icra edərkən, ən birinci fikirlərini dilə verər və ən əvvəl bir millətin dilini yaddan çıxarmağa səy edərlər. Çünki dil həmən millət deməkdir.”***

*******

### *Gənclik*

***"Ey gənclik!***

***“Ey əsrimizin Siyavuşunun böyümüş oğlu!”***

***“Sənin öhdəndə böyük bir vəzifə var. Səndən əvvəlki nəsil yoxdan bir bayraq, müqəddəs bir ideal rəmzi yaratdı. Onu min müşkülatla ucaldaraq dedi ki: — Bir kərə yüksələn bayraq bir daha enməz!”***

***“Bunu deyərkən o, bu günkü öksüzanə mənzərəni hesaba almamış deyildi. Bu onun tərəfindən təsəvvür olunmuşdu.”***

***“O, sənin o zaman bu bayrağı gənc çiyinlərinə alıb məsumanə bir tərzdə küçə-küçə dolaşaraq: "Irəli, irəli Azərbaycan əsgəri" - deyə əsgər kimi addım atmağını görmüşdü və bu sözü cəsarətlə söyləmişdi.”***

***“Əlbəttə ki, sən onun bu ümidini qırmayacaq, bu gün parlament binası üzərindən Azərbaycan türklərinin yanıqlı türkülərinə mövzu olmuş, ürəklərinə enmiş bu bayrağı təkrar o bina üzərinə dikəcək, Böyük Dəmirçinin geri dönüşünü görüncə onun tərəfinə keçəcək, bu yolda ya qazi, ya şəhid olacaqsan".”***

*******

### *Qadın*

***“Ailə əsarəti və ailə istibdadı (zülmü) üzərinə təşkil edilən millətlər heç bir vaxt ailə hürriyyəti və ailə səadəti məbnaları (özülləri) üstündə qurulan millətlərlə mübarizə edə bilməzlər. Qadın bir millətin nisfi-mühümmünü (mühüm yarısını) təşkil edir. O, aciz isə, hüquqsuz və mərifətsiz olursa, millətin yarısı xəstə və məflucdur (iflicdir) - deməkdir.”***

***“Bütün digər xalqların qadınları kişilərlə bərabər ictimai-siyasi hərəkatda iştirak etdiyi və bununla da öz millətinin uğurlarına kömək etdiyi bir vaxtda müsəlman qadını dustaqlıqda qala bilməz və qalmamalıdır.”***

***“Sənə məğrurluq yaraşır, qürur sənin haqqındır, xanım qadın! Məmləkətimiz sənin kimi qadınların çiynində yüksələcək!”***

*******

### *Mədəniyyət*

***“Bütün mədəniyyətlər üç böyük amilin qarşılıqlı təsirlərindən doğarlar: coğrafi amil – vətən, etnoqrafi amil – millət və mənavi amil – mədəniyyət!”***

*“Ancaq elm və bilik ilə cəmaət özünün nə olduğunu və nə edə biləcəyini qana bilər.”*

*“Məncə, mədəniyyəti-bəşəriyyə millətlərin zəhmətlərindən hasil olan bir yekundur.”*

*“Hər millət öz iqtidar və öz istiqlalı sayəsində, yəni öz diriliyi ilə özünə xüsusi, xüsusi olduğu qədər də qiymətli bəzi şeylər əlavə ediyor ki, bir millətin ölməsi və yaxud ölgün fikirlərlə yaşaması yalqız özünün bədbəxtliyi deyil, bəşəriyyətin də böyük bir nöqsanını təşkil ediyor.”*

*“Həqiqi millətçilərin üzərinə tərəddüb edən qutsal qayə uzun sürəkli tarixin məhsulu olan milli varlığı bütün fəzilətləri, gələnək və görənəkləri, kültür və ədəbiyyatı ilə qorumaq, yaşatmaq və gəlişdirməkdir.”*

***

### *Millət*

*“Bir millətin öz tarixini bilməsi qədər qüvvətli bir ittihad (birlik) və təməddin (inkişaf) amili təsəvvür oluna bilməz. Mütəməddin (mədəni) millətlərin milli və mədəni həyatlarının nə yolda tərbiyə edildiyinə diqqət olunarsa, bu mətləbin həmən nə dərəcədə doğru olduğu asanlıqla görünər. Mədəni millətlərdə tarix, həm də vətən və milliyyət tarixi, ən mühüm dərslərdən birini təşkil edər.”*

*“Heç şübhə yoxdur ki, dünyanın millətlərə bölünərək qərar tutması mədəniyyəti-bəşəriyyə nöqteyi-nəzərindən bir zaiddir (müsbətdir).”*

*“Millət, bu günkü məfhumuyla bir qan və irq təsirindən ziyadə müştərək bir bilikdən ibarətdir.”*

*“Millətlər ailələrdən təşəkkül edər. Sağlam olmayan ailələrdən təşəkkül edən millətlər sağlam millət ola bilməzlər.”*

*“Millət ölmüyor. Milli ideal, milli istiqlal fikri daima yaşıyor. Ölmüş, bitmiş millətlərin təkrar dirildiyi də uzaq deyil. Yaxın tarix də şahiddir. Dirilmək və bir millət şəkil və heyətinə girmək, hələ millətin ən kamil şəkli-xariciyyəsi olan müstəqil bir hökumət təşkil etmək təsəvvüründən olduqca uzaq olan yəhudilik belə “ərzi-moyud”ini özünə qaytarmaq ümidindən qalmayır.”*

*“Milliyyət dövlətdən çox böyükdür. Hətta demək olar ki, milliyyət dövlətdən daha dərin və daha şümüllüdür (əhatlidir). Milliyyətlər bəzən olur dövləti qeyb edərlər, sonra yenidən onu qazanarlar. Fəqət dövlət millətdən daha geniş, daha vüsətlidir. Bəzən bu vüsət o qədərdir ki, onun daxilində bir çox milliyyətlər birləşib böyüyürlər və bundan dövlət heç də zəifləşmiyor.”*

## Məhəmməd Əmin Rəsulzadə haqqında tanınmış şəxslərin söylədikləri:

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması bizim vaxtilə itirilmiş dövlətçiliyimizi bərpa etdi, xalqımızın tarixində ilk dəfə demokratik prinsiplər əsasında müstəqil Azərbaycan dövlətinin, hökumətinin yaranmasının əsasını qoydu. Azərbaycanın bütün vətəndaşları - biz Azərbaycan Xalq Cümhuriyyətini yaradanları, o dövrdə qəhrəmanlıq nümunələri göstərən insanları böyük minnətdarlıq hissi ilə yad edirik.

İlk Azərbaycan Demokratik Respublikasının yaradıcıları, onun rəhbərləri Məmməd Əmin Rəsulzadə, Fətəli xan Xoyski, Əlimərdan bəy Topçubaşov, Nəsib bəy Yusifbəyov və başqaları Azərbaycan xalqının tarixində böyük xidmətlər göstərmişlər və Azərbaycana ilk dəfə müstəqilliyin, müstəqil dövlətçiliyin, demokratiyanın əsaslarını qoymuşlar.

***Heydər Əliyev***

Məmməd Əmin Rəsulzadə, Fətəli xan Xoyski və digər rəhbərlər, onların dünyagörüşü, cəsarəti, xalqa olan bağlılığı hər bir azərbaycanlı üçün nümunədir. Ona görə onların əziz xatirəsi bizim üçün daim qürur mənbəyidir.

Məhəmməd Əmin Rəsulzadə XX əsrin ilk onilliklərində böhranlı geosiyasi şəraitdə Azərbaycanda müstəqillik idealının gerçəkləşdirilməsi və milli dövlət quruluşunun dirçəldilməsi yolunda böyük xidmətlər göstərmiş şəxsiyyətlərdəndir. Onun istiqlal məfkurəsi öz mənbəyini doğma xalqının çoxəsrlik yaddaşında kök salmış milli azadlıq düşüncəsindən alırdı. Məhəmməd Əmin Rəsulzadənin dövrün salnaməsinə çevrilən parlaq publisistik, siyasi, ədəbi-tənqidi və elmi irsi Azərbaycanın ictimai fikir tarixində xüsusi yer tutur. Uzun illər ərzində mühacirətdə də o, müstəqil Azərbaycan arzusu ilə yaşamış və mübarizə aparmışdır.

Məhəmməd Əmin Rəsulzadə xalqımızın müstəqillik idealının gerçəkləşdirilməsində, Azərbaycanın tarixi dövlətçilik ənənələri zəminində milli dövlət quruluşunun dirçəldilməsində, milli istiqlal ideyalarının geniş yayılmasında böyük xidmətlər göstərmiş və siyasi publisistikası ilə ədəbi-ictimai fikir tariximizə layiqli töhfələr vermiş görkəmli ictimai-siyasi xadimdir.

***İlham Əliyev***

Mən dünyaya səndən üç sənə erkən göz açmışam. Ancaq bütün türk aləmində türkün istiqlal bayrağını sən qaldırmısan və bayraq enməsin deyə, mən sənin əlindən alıb Türkiyə üzərində dalğalandırmışam. Enməz demisən bu bayraq, enməyəcəkdir!

***Mustafa Kamal Atatürk***

Siz Azərbaycanın ən böhranlı zamanlarında fəal bir mücahit sifətiylə çalışdınız, bir çox mühüm hadisələri yaxından gördünüz, müxtəlif cərəyanların içində oldunuz və sərgüzəştlərlə dolu bir həyat yaşadınız!

***Əli bəy Hüseynzadə***

O, qarşısındakı adamın şəxsinə toxunmazdı, xüsusi hallarını dilə almağa tənəzzül etməzdi, fikrə-fikirlə, dəlilə-dəlillə cavab verərdi. Onun üçündür ki, ən azğın fikir düşmənləri belə, Emin bəyin şəxsinə hörmət edər, səbatına heyran qalırdılar.

***Əbdülvahab Yurdsevər***

Məhəmməd Əmin Rəsulzadə, Azərbaycanın bağımsızlığı üçün ən müqəddəs varlığı: ailəsini, hətta həyatını fəda etmiş bir milli qəhrəmandı. Onun ən böyük sərvəti – 27 aprel 1920-ci ildə vətəni işğal edənlərin və yardımçılarının çirkli əllərindən aldığı, yurd xaricinə çıxardığı Üçrəngli Bayraq olmuşdur.

***Cəmil Ünal***

Ömrünün 50 ildən çoxunu türklük üçün, vətəni və milləti üçün sevə-sevə xərcləyən, əsrimizin ilk yarısını adıyla şərəfləndirən böyük türk insanlarından biri də heç şübhə yox ki, Məhəmməd Əmin Rəsulzadədir.

***Əhməd Qaraca***

Modern Avropa qəzet formasını ilk dəfə İrana gətirən Rəsulzadə olub.

Rəsulzadə, bütün ömrüm boyunca, Şərq dünyasında tayına rastlaşmadığım, mübaliğəsiz söyləyə biləcəyim fövqəladə nadir insanlardan biri idi. Məhəmməd Əmin bəy tərbiyəli, qüvvətli və sağlam məntiq sahibi, təmiz qəlbi, doğru sözlü, mətanətli, tam mənasıyla dürüst, fikir və yoluna dərin bir iman bəsləyən fədakar, mücahid və örnək bir insandı. Belələrinə zəmanəmizdə və hələ bizim tərəflərdə rastlaşmaq həmən-həmən imkansız olduğu kimi, bütün dünyada da rastlanmaz.

***Seyid Həsən Tağızadə***

Məhəmməd Əmin Rəsulzadə Azərbaycan davasını qəlblərə nəqş etmiş ecazkar bir qəhrəman və mütəfəkkir kimi əbədi yaşayacaqdır. Onun sonsuz mübarizəsi Azərbaycan davasını bütün türk xalqlarının şüuruna yerləşdirmişdir.

***Teyyub Qurban***

Məhəmməd Əmində natiqlikdə "patent" qazanmış olan "arator"lara məxsus qol atma, baş oynatma, üzgözünü sifətdən-sifətə dəyişmə kimi hərəkətlər yox idi. Bunların əvəzində özgə bir hal var idi ki, o da getdikcə qızışıb sözlərinin dəruni qəlbdən söylədiyini eşidənlərə hiss etdirməklə dərin bir təsir oyatmaq idi. Qol atmaqdan bu yaxşıdır. Bunda ixlasi qəlb və səmimiyyətlə bərabər, deyilən kəlamda bir də böyük bir ciddiyyət mövcud olduğuna hər kəs inanıb natiqin hər bir sözünə lazımınca əhəmiyyət verirdi. O idi ki, hər bir cümlə axırında alqışlar yağırdı.

***Üzeyir Hacıbəyov***

Xalqımızın böyük oğlu Rəsulzadənin ədəbi-siyasi irsi bu gün hər bir azərbaycanlının vətənsevərlik, sədaqət ruhunda tərbiyəsi üçün etibarlı mənbədir.

*Elçin Əfəndiyev*

Ömrünün çoxunu Azərbaycanın istiqlalı ideyasının təbliğinə, Azərbaycan ədəbiyyatının böyük nailiyyətlərinin yayılmasına həsr etmiş Məmməd Əmin Rəsulzadənin yaradıcılığı mədəniyyət tariximizdə dəyərli xəzinədir.

*Pənah Xəlilov*

Rəsulzadə o şərəfli həyatı yaşamış birisidir ki, özündən sonra qoyduğu irs məslək yoludur və biz bu yolu dönmədən getməkdəyik. Rəsulzadə yalnız Azərbaycan xalqının azadlığı uğrunda mübarizə aparan şəxsiyyət olmayıb, sovet əsarətində əzilən xalqların lideri kimi təqdim olunur.

*Nəsiman Yaqublu*

Azərbaycan nə qədər varsa, Rəsulzadə ideyaları da o qədər yaşayacaq. İlk türk dövlətini Azərbaycan qurub. Yaşasın Azərbaycan!

*Rais Rəsulzadə*

## Kitabları

### *Kiril əlifbası ilə*

Azərbaycan Cumhuriyyəti. - Bakı : Elm, 1990. - 116 s.

Əsrimizin Siyavuşu : Çağdaş Azərbaycan ədəbiyyatı. Çağdaş Azərbaycan tarixi. - Bakı : Gənclik, 1991. - 112 s.

Əsərləri. C. 1. – Bakı: Azərnəşr, 1992. – 470 s.

### *Latın qrafikası ilə*

Bir Türk milliyyətçisinin Stalinə ixtilal xatirələri. - Bakı : Qanun, 2010. - 132 s.

Milli birlik : tarixi ədəbiyyat. - Bakı : Çıraq, 2009. - 176 s.

## Haqqında kitablarda

**Bağırzadə N**. Gecikmiş etiraf kimi : esse. - Bakı : Şirvannəşr, 2007. - 128, [8] s.

**Elçin**. Məmməd Əmin Rəsulzadə // Seçilmiş əsərləri. 10 cilddə. C. 8. Bakı: Çinar-çap, 2005. – S. 12-28.

**Elçin**. Məmməd Əmin Rəsulzadə : oçerk. - Bakı : Şərq-Qərb, 1994. - 24 s.

**Əhməd D**. Azərbaycan Heyəti-Mürəxxəsəsi İstanbulda // Mühacirlərin dönüşü : Yeni fotolar və sənədlər. C. 1. - Bakı : TEAS PRESS Nəşriyyat evi, 2017. – S. 11-45.

**Əhməd D**. Bir ildən yüz ilə : Yeni fotolar və sənədlər. - Bakı : TEAS PRESS Nəşriyyat evi, 2018. - 228 s.

**Əhməd D.** Polşadan göndərilən açıqca // Fərqlilər. - Bakı : TEAS PRESS Nəşriyyat evi, 2015. – S. 145-151.

**Qurban T.** Bir kərə yüksələn bayraq. - Bakı : "OL" MMC, 2014. - 192 s.

**Qurban T**. Dirilik gəmisi : Tarixi dram, məqalələr, şeirlər, müsahibə. - Bakı : Şirvannəşr, 2008. - 148 s.

**Vəliyeva F.** M.Ə.Rəsulzadənin elmi-nəzəri araşdırmalarında folklorşünaslıq məsələləri // Azərbaycan mühacirət folklorşünaslığı : monoqrafiya. - Bakı : Qartal, 2009. – S. 66-77.

**Yaqublu N**. Azərbaycan Xalq Cümhuriyyəti Qurucuları Bakının qurtuluşu haqqında // Bakının qurtuluşu. - Bakı : Adiloğlu, 2008. – S.41-44.

**Yaqublu N**. Məhəmməd Əmin Rəsulzadə ensiklopediyası. - Bakı : "OL" MMC, 2013. - 506 s.

**Yaqublu N.** Məmməd Əmin Rəsulzadə. - Bakı : Gənclik, 1991. - 308 s.

## Əsərləri dövrü mətbuatda

6 ay inqilab // 525-ci qəzet. - 2018. - 21 aprel. - № 71. - S. 20. - "Açıq söz" qəzetinin 29 avqust 1917-ci il tarixli 553-cü sayında dərc olunmuşdur.

1919-1920-ci illərdə Azərbaycan Cümhuriyyəti // Ayna. – 1991. – may. – S. 2.

Ağaoğlu Əhməd // 525-ci qəzet. - 2018. - 10 mart. - № 46. - S. 18-19.

Azərbaycan davası // Ədəbiyyat qəzeti. – 1994. – 4 fevral. - № 6. – S. 1.

Azərbaycan davası // 525-ci qəzet. - 2018. - 26 may. - № 95. - S. 20. - 1954-cü ildə "Azərbaycan" aylıq kültür dərgisində çap olunmuşdur.

Azərbaycan köylərində siyasi fəaliyyət // 525-ci qəzet. - 2018. - 22 dekabr. - № 228. - S. 20. - "Yeni Qafqasiya"nın 15 may 1926-cı il tarixli 13-cü sayında dərc edilmişdir.

Azərbaycanda fikir həyatı: bir ideoloji bəhsi : Azərbaycan Respublikasının Prezidenti 2018-ci ili Azərbaycan Xalq Cümhuriyyəti ili elan etmişdir // 525-ci qəzet. - 2018.- 14 iyul. - № 125. - S. 20-21. - "Yeni Qafqasiya"nın 1 nisan (aprel) 1927-ci il tarixli 13-cü sayında dərc edilmişdir.

Azəri gənclər birliyi yığıncağında M.Ə.Rəsulzadənin mühazirəsi: Qərbdə və Şərqdə milli məsələ : V mühazirə: Sıra Şərqindir ; Alacağımız dərs // 525-ci qəzet. - 2018. - 6 oktyabr. - № 174. - S. 20. - "Yeni Qafqasiya"nın 15 may 1924-cü il tarixli 16-cı və 14 nisan (aprel) 1926-cı il tarixli 11-ci və 16 nisan (aprel) 1927-ci il tarixli 14-cü saylarında dərc edilmişdir.

Bakı uyezdi haqqında üç nəzər // 525-ci qəzet. - 2018. - 17 fevral. - № 32. - S. 20-21. - "Açıq söz" qəzetinin 19 sentyabr 1917-ci il tarixli 569-cu sayında dərc edilmişdir.

Bir böyük bayram daha : Azərbaycan Respublikasının Prezidenti 2018-ci ili Azərbaycan Xalq Cümhuriyyəti ili elan etmişdir // 525-ci qəzet. - 2018. - № 37. – S. 20. – "Açıq söz" qəzetinin 26 mart 1917-ci il tarixli 433-cü sayında dərc edilmişdir.

Bizim muxtariyyətimiz və Bakı bolşevikləri // 525-ci qəzet. – 2018. – 13 yanvar. – S. 20. – "Açıq söz" qəzetinin 29 yanvar 1918-ci il tarixli 667-ci sayında dərc edilmişdir.

Bolşevik yalançıları : // 525-ci qəzet. - 2018. - 6 oktyabr. - № 174. - S. 21. - "Yeni Qafqasiya"nın 14 nisan (aprel) 1926-cı il tarixli 11-ci sayında dərc edilmişdir.

Böyük inqilab ; Məclisi-Müəssisana hazırlaşalım ; Cəmaət idarəsi // 525-ci qəzet. - 2018. - 20 yanvar. - № 12. - S. 20-21. - İlk dəfə "Açıq söz" qəzetinin 16 mart 1917-ci il tarixli 425-ci sayında və 24 dekabr 1917-ci il 636-cı sayında dərc edilmişdir.

Bu nədir? // 525-ci qəzet. - 2018. - 17 mart. - № 51. - S. 20. - "Açıq söz" qəzetinin 5 iyul 1917-ci il tarixli 513-cü sayında dərc edilmişdir.

Bütün Azərbaycan əhalisinə // 525-ci qəzet. - 2018. - 1 dekabr. - № 213. - S. 20. - "Azərbaycan" qəzetinin 29 noyabr 1918-ci il tarixli 52-ci sayında dərc edilmişdir.

Cahan hərbinin təsiri ; Sıra Şərqindir ; Alacağımız dərs // 525-ci qəzet. - 2018. - 3 mart. - № 42. - S. 20-21. - "Yeni Qafqasiya" dərgisinin 16 nisan (aprel) 1927-ci il tarixli 14-cü sayında və Rəsulzadə M.Ə. "Yeni Qafqasiya" yazıları (1923-1927) (Ankara : 2017. - S. 371-376.) kitabında dərc edilmişdir.

Daşnaksütyun firqəsinin iflası // 525-ci qəzet. - 2018. - 12 may. - № 85. - S. 21. - "Yeni Qafqasiya"nın 1 mart 1925-ci il tarixli 11-ci sayında dərc edilmişdir.

Erməni məsələsi // 525-ci qəzet. - 2018. - 31 mart. - № 56. - S. 20. - "Yeni Qafqasiyz" dərgisinin 15 mayıs 1924-cü il tarixli 16-cı sayında dərc edilib.

Əsrimizin Siyavuşu // Azərbaycan. – 1990. - №4. – S. 132-151.

Federalizm və demokratizm // 525-ci qəzet. - 2018. - 7 aprel. - № 61. - S. 20. - İlk dəfə "Açıq söz" qəzetinin 25 iyul 1917-ci il tarixli 528-ci sayında dərc edilmişdir.

Fitnələr həqqində // 525-ci qəzet. - 2018. - 17 mart. - № 51. - S. 20-21. - "Açıq söz" qəzetinin 30 iyun 1917-ci il tarixli 509-cu sayında dərc olunmuşdur.

Həşəmətli bir gün (Müsavat məsləkinin elani-zəfər) // 525-ci qəzet. - 2018. - 2 iyun. - № 99. - S. 20-21. - "İstiqlal" qəzetinin 31 mayıs 1919-cu il tarixli 17-ci sayında dərc edilmişdir.

Hürriyyət qarşısında // 525-ci qəzet. - 2018. - 27 yanvar. - № 17. - S. 21. - İlk dəfə "Açıq söz" qəzetinin 7 mart 1917-ci il tarixli 420-ci sayında dərc edilmişdir.

İnqilab nəğmələri, yaxud həbsxana şeirləri : Azərbaycan Respublikasının Prezidenti 2018-ci ili Azərbaycan Xalq Cümhuriyyəti ili elan etmişdir // 525-ci qəzet. - 2018. - 29 sentyabr. - № 169. - S. 20-21. - "Yeni Qafqasiya"nın 28 mayıs 1927-ci il tarixli 17-ci sayında dərc edilmişdir.

İranda Cümhuriyyət ; Novruz bayramında cümhuriyyət təsidi // 525-ci qəzet. - 2018. - 22 dekabr. - № 228. - S. 20-21. - "Yeni Qafqasiya"nın 11 şaban (1 aprel) 1924-cü il tarixli 13-cü sayında dərc edilmişdir.

İsgəndər qəzəb və hiddət içində // Dan ulduzu. – 1992. – 14 fevral.

İstiqlal // 525-ci qəzet. - 2018. - 19 may. - № 90. - S. 20-21. - "İstiqlal" qəzetinin 4 şubat (fevral) 1919-cu il tarixli 1-ci sayında dərc edilmişdir.

Kamburu məzar doğrultur : Qozbeli qəbir düzəldər // 525-ci qəzet. - 2018. - 24 noyabr. - № 208. - S. 21. - "Yeni Qafqasiya"nın 15 şubat (fevral) 1924-cü il tarixli 10-cu sayında dərc edilmişdir.

Qafqasiya türkləri // Azərbaycan. – 1990. - № 12. – S. 142-156.

Mart faciəsi (30-31 mart, 1 aprel 1918) // 525-ci qəzet. - 2018. - 31 mart. - № 56. - S. 20-21. - "Yeni Qafqasiya" dərgisinin 31 mart 1924-cü il tarixli 13-cü sayında dərc edilmişdir.

Mavərayi-Qafqaz (Zaqafqasiya Konqresində qopan şikayətlər) : // 525-ci qəzet. - 2018. - 24 noyabr. - № 208. - S. 20-21. - "Yeni Qafqasiya"nın 15 mart 1924-cü il tarixli 12-ci sayında dərc edilmişdir.

Məclisi-müəssisan seçkiləri ; Müşahidat // 525-ci qəzet. - 2018. - 5 may. - № 81. - S. 20-21. - "Açıq söz" qəzetinin 26 noyabr 1917-ci il tarixli 613-cü sayında dərc edilmişdir.

Məmməd Əmin Rəsulzadənin nitqi // Azərbaycan. – 1990. – 25 may.

Millət məfhumu və istiqlal ; Azərbaycanda milliyət məsələsi: // 525-ci qəzet. - 2018. - 14 aprel. - № 66. - S. 20. - "Yeni Qafqasiya" dərgisində 1927-ci ildə 27 mayısda 17-ci sayda dərc edilib.

Millətlər qurultayı // 525-ci qəzet. - 2018. - 10 fevral. - № 27. - S. 28. - "Açıq söz" qəzetinin 10 sentyabr 1917-ci il tarixli 563-cü sayında dərc edilmişdir.

Millətlərin hüququ və hərəkətləri // 525-ci qəzet. - 2018. - 27 yanvar. - № 17. - S. 20. - İlk dəfə "Açıq söz" qəzetinin 8 dekabr 1917-ci il tarixli 624-cü nömrəsində dərc edilmişdir.

Milliyyət məbdəinin (prinsipinin) Avropada qələbəsi: Rəsulzadə Məhəmməd Əmin bəyin mühazirələri : I mühazirə // 525-ci qəzet. - 2018. - 21 iyul. - № 130. - S. 20-21. - "Yeni Qafqasiya"nın 16 kanuni əvvəl (dekabr) 1926-cı il tarixli 5-6-cı saylarında dərc edilmişdir.

Milliyyət məbdəinin (prinsiplərinin) Avropada qələbəsi: Azəri Gənclər Birligi mohzərində (yığıncağında) M.Ə.Rəsulzadənin mühazirəsi : Milliyyət Məsələsində Almaniya məktəbi : II

mühazirə // 525-ci qəzet. - 2018. - 22 sentyabr. - № 164. - S. 20. - "Yeni Qafqasiya"nın 17 şubat (fevral) 1927-ci il tarixli 10-cu sayında dərc edilmişdir.

Milliyyət məbdəinin (prinsipinin) Avropada qələbəsi : Azəri Gənclər Birligi yığıncağında M.Ə.Rəsulzadənin mühazirəsi : III mühazirə : // 525-ci qəzet. - 2018. - 22 sentyabr. - № 164. - S. 20-21. - İlk dəfə "Yeni Qafqasiya"nın 18 mart 1927-ci tarixli 11-12-ci saylarında dərc edilmişdir.

Milliyyət məbdəinin (prinsipinin) Avropada qələbəsi: Azəri Gənclər Birligi mohzərində (yığıncağında) M.Ə.Rəsulzadənin mühazirələri : IV mühazirə // 525-ci qəzet. - 2018. - 22 sentyabr. - № 164. - S. 21.

Müasir İranın həqiqi çöhrəsi // 525-ci qəzet. - 2018. - 17 noyabr. - № 203. - S. 20-21. - "Yeni Qafqasiya"nın dekabr 1924-cü il tarixli 5-ci sayında dərc edilmişdir.

Müsavat firqəsi və bolşeviklər // 525-ci qəzet. - 2018. - 13 oktyabr. - № 179. - S. 28-29. - "Yeni qafqasiya"nın 28 Mayıs 1924-cü il tarixli 17-ci sayında dərc edilmişdir.

Nəriman Nərimanovun komisyonu // 525-ci qəzet. - 2018. - 3 mart. - № 42. - S. 20. - "Yeni Qafqasiya" dərgisinin dekabr 1923-cü il tarixli 5-ci sayında dərc edilmişdir.

Panturizm haqqında // Azərbaycan. – 1991. - № 6. – S. 103-121.

İki "Leyli-Məcnun" // Ədəbiyyat qəzeti. – 2009. – 28 may. – № 20. – S.1, 2.

İki "Leyla və Məcnun" // Ədəbiyyat qəzeti. – 2013. – 29 noyabr. - № 44. – S. 1, 5 ; 6 dekabr. – S. 1, 3.

Qürbət notları // Ədəbiyyat qəzeti. – 2014. – 31 yanvar. – S. 1, 3.

Məktublarda qalan günlər: Məhəmməd Əmin rəsulzadənin S.H. Təqizadə ilə yazışmasından // Gənclik. – 1989. - № 3. – S. 48-54.

Mətbuat azadlığı // Kaspi. – 2014. – 30 yanvar. – S. 10-12.

Rəsulzadə Məhəmməd Əmin nitqi : // 525-ci qəzet. - 2018. - 30 iyun. - № 115. - S. 20. - "Azərbaycan" qəzetinin 14 təşrini-sani (noyabr) 1918-ci il tarixli 39-cu sayında dərc edilib.

Seyrü-səfər (Səyahətnamə) qərarnaməsi münasibətilə : // 525-ci qəzet. - 2018. - 29 dekabr. - № 233. - S. 21. - "Yeni Qafqasiya"nın avqust 1924-cü il tarixli 22-ci sayında dərc edilmişdir.

Şərqdə milliyyət cərəyanı // 525-ci qəzet. - 2018. - 21 iyul. - № 130. - S. 20. - "Yeni Qafqasiya"nın 15 kanuni əvvəl (dekabr) 1926-cı il tarixli 6-cı ayında dərc edilmişdir.

Türk harsı və milliyyətçiligi əleyhində bir nümayiş Azərbaycan komunist firqəsinin XVI Bakı konqresi // 525-ci qəzet. - 2018. - 29 dekabr. - № 233. - S. 20-21. - "Yeni Qafqasiya"nın 1 şubat 1927-ci il tarixli 8-9-cu sayında dərc edilmişdir.

Ümumrusiya müsəlman syezdi : xatirələr və təəssürat // 525-ci qəzet. - 2018. - 17 mart. - № 51. - S.

20. - İlk dəfə "Açıq söz" qəzetinin 21, 23 may 1917-ci l tarixli 478, 479-cu saylarında dərc edilmişdir.

Vətən mühərriri Bakıda // 525-ci qəzet. - 2018. - 6 oktyabr. - № 174. - S. 20-21. - "Yeni Qafqasiya"nın 15 may 1924-cü il tarixli 16-cı sayında dərc edilmişdir.

Yersiz əndişələr (Rəsulzadə Məhəmməd Əmin bəyin cavabı) // 525-ci qəzet. - 2018. - 17 noyabr. - № 203. - S. 20. - "Yeni Qafqasiya"nın 1 qanuni-əvvəl (1 dekabr) 1925-ci il tarixli 5-ci sayında dərc edilmişdir.

Yol təəssüratı // Mədəniyyət. – 1992. – 1 yanvar. – S. 2.

## Haqqında dövrü mətbuatda

M.Ə.Rəsulzadənin 140 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (30 dekabr 2023-cü il) // Xalq qəzeti. – 2023. – 31 dekabr. - №288. – S. 2

**Abbaslı T**. Vətənə tən Vətəndaş : İlk Cümhuriyyət növrağımızın, bir daha enməyəsi bayrağımızın banisi - Məhəmməd Əmin Rəsulzadə // Mədəniyyət. - 2014. - 31 yanvar. - № 8. - S. 10.

**Abdullayeva N.** Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyi münasibətilə tədbir keçirilib // Palitra. – 2014. – 1 fevral. - № 18. – S. 6.

**Ağalarlı M**. Milli dirçəlişə töhfə verən ictimai-siyasi xadim : Məhəmməd Əmin Rəsulzadə - 140 // Azərbaycan : qəzet. - 2024. - 31 yanvar. - № 20. - S. 11.

**Anar.** Bir kərə yüksələn bayraq : Nəcibə Bağırzadənin "Uzaqdakı yaxınlar" kitabına ön söz // Ədəbiyyat qəzeti. - 2015. - 30 may. - № 34/35. - S. 3.

**Aslanov M**. Drama tapıldı // Ədəbiyyat qəzeti. – 2000. – 15 dekabr.

**Aslanov M**. Məhəmməd Əmin Rəsulzadə İranda // Ədəbiyyat qəzeti. – 2003. – 26 iyun. – S. 2, 4.

Bir kərə yüksələn bayraq bir daha enməz: Məmməd Əmin Rəsulzadənin anadan olmasının 110 illiyinə həsr olunmuş yubiley gecəsində Azərbaycan Respublikası Baş nazirinin müavini Elçin Əfəndiyevin məruzəsi // Ədəbiyyat qəzeti. – 1994. – 4 fevral. - № 6. – S. 2.

Cümhuriyyətin qurucusu // Mədəniyyət : qəzet. - 2024. - 26 yanvar. - № 7. - S. 4.

**Dünyaminqızı Q**. Amalına və əməlinə sadiq insan : Milli müstəqilliyimizin, istiqlalımızın bayraqdarı Məhəmməd Əmin Rəsulzadənin anadan olmasından 129 il ötür // Kaspi. - 2013. - 31 yanvar. - № 17. - S. 12.

**Dünyaminqızı Q**. Rəsulzadənin "fədakar millət adamı" adlandırdığı şəxsiyyət // Kaspi. - 2018. - 23 may. - № 91. - S. 15.

**Dünyaminqızı Q.** Varislik məsuliyyətni layiqincə daşıyaq : Məhəmməd Əmin Rəsulzadə - 130 // Kaspi. - 2014. - 30 yanvar. - № 16. - S. 18-20.

**Elbrusoğlu A.** M.Ə. Rəsulzadənin 125 illiyinə qiymətli töhfə // Mədəniyyət. – 2009. – 31 yanvar. – S. 7.

**Elzar**. Bir kərə yüksələn bayraq bir daha enməz // Şəkər villası. - 2003. - 28 yanvar – 3 fevral. - № 03.

**Əhədov E**. Cümhuriyyət tarixinin Lənkəranla əlaqəli səhifələri // 525-ci qəzet. - 2024. - 22 fevral. - № 34. - S. 10. ; 23 fevral. № 35. - S.14.

**Əhmədova F**. Azərbaycan dövlətçilik tarixində Məhəmməd Əmin Rəsulzadənin yeri : Məhəmməd Əmin Rəsulzadə - 130 // Azərbaycan. - 2014. - 31 yanvar. - № 20. - S. 5.

**Əliyev M.** Bu barədə ilk dəfə : Məhəmməd Əmin Rəsulzadə // Kaspi. - 2014. - 30 yanvar. - № 16. - S. 13. - Məqalə ilk dəfə "Odlar yurdu" qəzetinin sentyabr 1988-ci il tarixli 17-ci sayında dərc edilmişdir.

**Əliyev M.** Gələcək nəsillərə xitab // Azərbaycan. – 1990. - №4. – 151-152.

**Əliyev Z.** Repressiya yellərindən keçən sənət yolu // Mədəniyyət. – 2014. – 31 yanvar.

**Əliyeva M.** Xalqının hürriyyəti arzusu ilə yaşamış istiqlal mücahidi // Respublika. - 2024. - 31 yanvar. - № 20. - S. 7.

**Əzimova A.** Məhəmməd Əmin Rəsulzadə maarif və mədəniyyət haqqında : Məhəmməd Əmin Rəsulzadə - 130 // Kaspi. - 2014. - 30 yanvar. - № 16. - S. 21-22.

**Feyziyev C.** İstiqlalımızın bayraqdarı // Kaspi. – 2014. – 1-3 fevral. – S. 4-5.

**Fərəcov S**. Tarixin bir səhifəsi : Məhəmməd Əmin Rəsulzadənin 130 illiyinə həsr olunmuş tədbir // Mədəniyyət. - 2014. - 29 yanvar. - № 7. - S. 2.

**Hacı S**. Nizami Gəncəvinin milli və ədəbi kimliyinə Rəsulzadə baxışı // 525-ci qəzet. - 2017. – 30 mart. - S. 6.

**Hacı S.** Rəsulzadənin düşüncəsində Qafqaz // Panorama. – 1999. – 18 fevral.

**Həmidə**. Əbədi azadlıq şərqisi // Mədəniyyət. – 2014. – 5 fevral. – S. 8.

Həyatını müstəqilliyimiz yolunda qurban verib : Məhəmməd Əmin Rəsulzadə haqqında // Tumurcuq. - 2014. - № 1. – S. 3.

**Həzi B**. Bir eşq romanı kimi : professor Qulu Məhərrəmlinin Məmməd Əmin Rəsulzadə əsəri haqqında düşüncələrim // Ədəbiyyat qəzeti. - 2023. - 23 dekabr. - № 50. - S. 21.

**Hüseynov F.** Xalq Cümhuriyyətinin yadigarı // Mədəniyyət. – 2014. – 7 fevral. – S. 15.

**Hüseynov Ş.** O, vətəni bütöv görürdü // Xalq qəzeti. – 1993. – 20 yanvar. - № 10.

**Xalidoğlu S**. M.Ə.Rəsulzadənin I Dünya müharibəsi illərindəki mətbu fəaliyyəti // Kaspi. - 2014. - 30 yanvar . - № 16. - S. 23.

**İsayev Ə.** Əlvida, Gəncə: Azərbaycan Cümhuriyyəti Milli Şurasının 1918-ci il 17 iyun tarixli son yığıncağından qeydlər // Azərbaycan. – 1994. – 29 yanvar. – S. 3.

**İsgəndərov A**. M.Ə.Rəsulzadə və Azərbaycan istiqlalı // Azərbaycan. – 1999. – 28 yanvar. – S. 2.

**Kəngərli R.** İstiqlalımızı qorumağa çağırış : Məhəmməd Əmin Rəsulzadə - 130 // Xalq qəzeti. - 2014. - 28 yanvar. - № 17. - S. 4.

Qalib Ərdəm: Rəsulzadə ilə tanış idi: söhbəti hazırladı: Q. Kəngərli // Mədəniyyət. – 1991. – 25 aprel.

Qardaş ölkə qürbət deyil: Məhəmməd Əmin Rəsulzadənin 130 illiyi əbədiyyətə qovuşduğu Ankarada qeyd edilib // Mədəniyyət. – 2014. – 5 fevral. – S. 5.

**Qəhrəmanov T**. Azərbaycan Milli qurtuluş hərəkatının böyük ideoloqu : Məhəmməd Əmin Rəsulzadə - 125 // Mədəniyyət. - 2009. - 31 yanvar. - S. 6.

**Quliyev V**. Məhəmməd Əmin Rəsulzadə "Qafqaz dağlıları" jurnalının səhifələrində // 525-ci qəzet. - 2021. - 5 iyun. - № 98. - S. 16-17.

**Quliyev V**. Məhəmməd Əmin Rəsulzadənin bir məktubu haqqında : Azərbaycan Xalq Cümhuriyyəti - 100 // 525-ci qəzet. - 2018. - 3 mart. - № 42. - S. 18-19. - Budapeşt, fevral, 2018-ci il.

**Quliyev V**. Zəki Vəlidi Toğan, Əlimərdan bəy Topçubaşov və Məhəmməd Əmin Rəsulzadə üçbucağı : Məhəmməd Əmin Rəsulzadə - 140 // 525-ci qəzet. - 2024. - 20 yanvar. - № 11. - S. 18, 20.

**Quluzadə M**. Görkəmli siyasi və ictimai xadim : Məhəmməd Əmin Rəsulzadə - 130 // Xalq qəzeti. - 2014. - 31 yanvar. - № 20. - S. 5.

M.Ə.Rəsulzadə : İnqilab nəğmələri, yaxud həbsxana şeirləri // Ədəbiyyat qəzeti. - 2022. - 11 iyun. - № 21. - S. 13. – Nəsiman Yaqublunun təqdimatında

**Mehdiyev X.** M.Ə.Rəsulzadə ilə görüş // Mədəniyyət. – 1997. – 28 may.

**Mehparə Q**. Bir kərə yüksələn bayraq bir daha enməz // Təzadlar. – 2007. – 19-26 iyun. - № 23. – S. 13.

Məhəmməd Əmin Rəsulzadə və Türk dünyası // Mədəniyyət : qəzet. - 2024. - 26 yanvar. - № 7. - S. 2.

Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyi ilə bağlı tədbirlər planı hazırlanıb // Mədəniyyət. – 2014. – 22 yanvar. - № 5. – S. 3.

Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyinə həsr edilmiş elmi sessiya keçirilmişdir // Azərbaycan : qəzet. - 2014. - 28 yanvar. - № 17. - S. 5.

Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (22 noyabr 2013-cü il) // Azərbaycan. – 2013. – 23 noyabr. – S. 1.

**Məmmədov X.** Mühacirətdən sonra... həbs: I məqalə // Ədəbiyyat qəzeti. – 1998. – 6 fevral. - № 5. – S. 2.

**Məmmədov X.** Mühacirətdən sonra... həbs: II məqalə // Ədəbiyyat qəzeti. – 1998. – 13 fevral. – № 6. – S. 3.

**Məmmədov Ş.** Özünü və doğmalarını fəda etməyi bacaranlar // Azadlıq. – 2009. – 8 yanvar. – S. 12.

**Mirzəli C**. Mədəni intibah carçısı : Məhəmməd Əmin Rəsulzadə - 100 // Xalq qəzeti. - 2024. - 1 fevral. - № 21. - S. 10.

**Muxtarova N.** M.Ə. Rəsulzadə təhsilin demokratikləşdirilməsi haqqında // Azərbaycan müəllimi. – 1992. - №1/2. – S. 53-57.

**Musayev M.** Məmməd Əmin Rəsulzadə Lahıcda // Bakı. – 1991. – 11 dekabr.

**Musayeva İ**. Məhəmməd Əmin Rəsulzadə və Azərbaycan ədəbiyyatı : I yazı // 525-ci qəzet. - 2024. - 29 fevral. - № 39. - S. 12-13.

**Mustafa Ə.** Tariximizin müstəqillik nəğməsi // Zaman. - 1996. – 6 mart.

**Mustafa F**. Məhəmməd Əmin bəy // 525-ci qəzet. - 2024. - 10 fevral. - № 26. - S. 18.

**Mükərrəmoğlu M**. Tarixin bir səhifəsi : Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyinə həsr olunmuş sərgi belə adlanır // Xalq qəzeti. - 2014. - 31 yanvar. - № 20. - S. 5.

Novxanıda Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyinə həsr edilmiş elmi-praktik konfrans keçirilmişdir // Azərbaycan. - 2014. - 31 yanvar. - № 20. - S. 5.

**Özcan Ö**. Mehmet Emin Resulzadenin Almanya ile ilişkiləri // Ədəbiyyat qəzeti. - 2020. - 12 iyun. - № 17. - S. 30-31.

Rais Rəsulzadə **:** "Bu adın arxasında böyük bir xalq dayanır" : "Varislər"in bugünkü qonağı Azərbaycan xalqının yetirdiyi ən böyük şəxsiyyətlərdən biri, xatirəsi, fəaliyyəti hər zaman hörmətlə anılan, bu gün başımız üstə dalğalanan üçrəngli bayrağı ilk dəfə qaldıran, üzünü bütün dünyaya tutub Azərbaycan səslənən böyük Məhəmməd Əmin Rəsulzadənin nəvəsi Rais Rəsulzadədir / söhbəti yazdı Ə.Qiyas // Ədəbiyyat qəzeti. - 2020. - 19 sentyabr. - № 40/41. - S. 2-4.

**Rəhimli Ə.** Məhəmməd Əmin Rəsulzadə yaradıcılığında Cənubi Azərbaycan mövzusu // Respublika. - 2018. - 14 oktyabr. - № 230. - S. 6.

Rəsulzadənin ədəbi-fəlsəfi irsi və müasirlik // Mədəniyyət : qəzet. - 2024. - 26 yanvar. - № 7. - S. 3.

**Rüstəmova-Tohidi S**. İki dost, iki tale : Məhəmməd Əmin Rəsulzadə - 130 // Azərbaycan. - 2014. - 30 yanvar. - № 19. - S. 6.

**Sultanlı V.** Məhəmməd Əmin Rəsulzadənin ədəbi düşüncələri : Məhəmməd Əmin Rəsulzadə - 130 // Kaspi. - 2014. - 30 yanvar. - № 16. - S. 14-17.

**Sultanlı V.** Məmməd Əmin Rəsulzadə ədəbiyyatşünas kimi // Ulduz. – 1991. - № 11-12. – S. 2-6.

**Sultanova M**. Rəsulzadənin yazdığı məktub bu gün də evimizdədir : "Türkiyədə 1980-ci il çevrilişindən sonra təkrar fəaliyyətinə ilk icazə verilən dərnək Azərbaycan Kültür Dərnəyi olub" // Mədəniyyət. - 2018. - 23 may. - № 40. - S. 12.

**Sumbatzadə Ə.** M.Ə.Rəsulzadə xalqımızın adı haqqında // Xalq qəzeti. – 1992. – 31 yanvar.

**Sumbatzadə Ə.** M.Ə.Rəsulzadənin "Əsrimizin Siyavuşu" əsəri azərbaycanlıların millət kimi formalaşması haqqında // Elm. – 1991. – 27 aprel. – S. 2.

**Şəmsizadə N**. Məhəmməd Əmin Rəsulzadənin azərbaycançılıq məfkurəsi // Xalq qəzeti. - 2024. - 31 yanvar. - № 20. - S. 9.

**Şirvanlı Ə.** İki görüş // Ulduz. – 1991. – № 7. – S. 37-38.

**Şükürlü M**. Rəsulzadə borcumuz : Məhəmməd Əmin Rəsulzadə - 130 // Kaspi. - 2014. - 30 yanvar. - № 16. - S. 22.

**Tahirli A**. Cümhuriyyət tarixinə dair taleyüklü sənədlərə bir baxış : Məhəmməd Əmin Rəsulzadə - 140 // 525-ci qəzet. - 2024. - 2 mart. - № 41. - S. 21.

Tarixi yaradanlar: Məmməd Əmin Rəsulzadə // Xalq qəzeti. - 2023. - 15 noyabr. - № 248. - S. 9.

**Turan A.** Məhəmməd Əmin Rəsulzadənin istiqlal şüarı - "Bir kərə yüksələn bayraq bir daha enməz" : Məhəmməd Əmin Rəsulzadə - 130 // Xalq qəzeti. - 2014. - 31 yanvar. - № 20. - S. 5.

**Turan A.** Məhəmməd Əmin Rəsulzadənin siyasi fikirləri mövzusunda elmi-praktik konfrans // Xalq qəzeti. – 2014. – 1 fevral.

**Turan A**. Rəsulzadə bizim üçün Vətən mehrabı qurdu // Ədəbiyyat qəzeti. - 2020. - 23 may. - № 15. - S. 14.

**Verdiyev İ**. Dil məsələsinə Rəsulzadə münasibəti // 525-ci qəzet. - 2024. - 25 yanvar. - № 14. - S. 11.

**Yaqublu N**. Biz hələ Rəsulzadəni çox öyrənməliyik : Məhəmməd Əmin Rəsulzadənin tədqiqatçısı Nəsiman Yaqublu ilə söhbət / yazdı T. Məhərrəmova // Kaspi. - 2014. - 30 yanvar. - № 16. - S. 8.

**Yaqublu N**. M.Ə. Rəsulzadə Azərbaycan şairləri haqqında // Ədəbiyyat qəzeti. - 2024. - 27 yanvar. - № 3. - S. 12.

**Yaqublu N**. M.Ə. Rəsulzadə irsində Nizami yaradıcılığı : I məqalə // Ədəbiyyat qəzeti. - 2021. - 6 noyabr. - № 44. - S. 15.

**Yaqublu N**. M.Ə. Rəsulzadənin Nizami Gəncəvi araşdırmaları : II məqalə // Ədəbiyyat qəzeti. - 2021. - 13 noyabr. - № 45. - S. 13.

**Yaqublu N**. M.Ə.Rəsulzadənin "Azərbaycan şairi Nizami" kitabı haqqında : III məqalə // Ədəbiyyat qəzeti. - 2021. - 20 noyabr. - № 46. - S. 12-13.

**Yaqublu N**. M.Ə.Rəsulzadənin Nizami Gəncəvi araşdırmalarında yeniliklər : IV məqalə // Ədəbiyyat qəzeti. - 2021. - 4 dekabr. - № 47/48. - S. 20-21.

**Yaqublu N**. M.Ə.Rəsulzadənin Nizami Gəncəvi haqqında unudulmuş məqalələri : V məqalə // Ədəbiyyat qəzeti. - 2021. - 18 dekabr. - № 50. - S. 23.

**Yaqublu N.** M.Ə. Rəsulzadənin Nizami Gəncəvidən tərcümələri // Ədəbiyyat qəzeti. - 2022. - 29 yanvar. - № 3. - S. 26. - Söz ; Sözçü ; İxtiyar qadın ilə Sultan Səncər ; Tuğlacı ixtiyar. altıncı məqalə.

**Yaqublu N**. M.Ə.Rəsulzadə Azərbaycan yazıçıları haqqında // Ədəbiyyat qəzeti. - 2024. - 17 fevral. - № 6. - S. 17.

**Zeynalov N**. Rəsulzadənin irsi hec vaxt unudulmayacaq // Kaspi. – 30 yanvar. – 2014. – S. 23.

***Tərtib etdi:*** ***Əkbərova Aysel***